# Milli birliyi və siyasi həmrəyliyi təcəssüm etdirən partiya



**Yeni Azərbaycan Partiyasının ötən həftə keçirilmiş VII qurultayı partiya ilə yanaşı, cəmiyyətin də həyatında önəmli hadisə oldu. Bu, məhz onunla bağlıdır ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış bir siyasi güc olaraq ilk gündən müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi kimi tarixi mübarizənin önündə getmiş və daim xalqın ən ümdə arzu-istıklərinin gerçəkləşməsinə yol açmışdır.**

Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiya daşımışdır. 29 il öncə YAP müxalifət partiyası kimi yaranmışdır. Müxalifət partiyası kimi o zaman da partiyanın daxili və xarici qüvvələr tərəfindən fəlakətə sürüklənən Azərbaycanın xilası ilə bağlı taleyüklü təşəbbüslərlə çıxış etməsi və dövlətçilik ideyalarını rəhbər tutması tarixi bir zərurət və zamanın hökmü olmuşdu.

Partiyanın yaranması, inkişafı və güclənməsi ulu öndər Heydər Əliyevin ideyaları, onun nüfuzu, uzaqgörənliyi və dövlətçiliklə bağlı zəngin təcrübəsi və məsləhətləri əsasında baş vermişdir. Ötən dövr ərzində Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar partiyasına və eyni zamanda, Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilmişdir. Son 17 ildə Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyimiz uğurlar Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti və eyni zamanda, uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Azərbaycan keçən dövr ərzində kifayət qədər tarixi uğurlar əldə etmişdir. Bu uğurlar həm iqtisadiyyat, həm sosial, həm də beynəlxalq əlaqələr sahəsində əldə edilmişdir. Bu uğurları tamamlayan milli birliyin və hərbi qüdrətin nəticəsində uzun illər ərzində işğal altında olan torpaqlarımızın azad olunması ötən dövrün ən böyük tarixi nailiyyətidir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Azərbaycan dövlətinin başçısı kimi son 17 ildə ölkəmizdə 4 mühüm ümummilli tarixi nəticəyə nail olunmuşdur.

**Birincisi ciddi uğur Azərbaycanda dayanıqlı əsaslara söykənən milli birlik yaranmışdır.** Bu birlik həm xalq–iqtidar birliyidir, eyni zamanda, müxtəlif etnik və dini həmrəyliyi əhatə edir. Yəni, Azərbaycanda bu gün hər bir siyasi partiyanın nümayəndəsi öz fikirlərini azad şəkildə ifadə edə, hər bir xalqın nümayəndəsi öz dilində danışa bilir, öz inancını yaşada bilir. Azərbaycanda belə bir birliyin əldə olunması çox ciddi bir uğurdur.

Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulması da sözsüz ki, bu birliyin, həmrəyliyin növbəti sevindirici nəticəəsidir. Bu, həm də Yeni Azərbaycan Partiyasının nüfuzunun artmasının, xalqın maraqlarına xidmət etməsinin və ən ümdəsi, partiyanın sədri cənab İlham Əliyevə və sədrin 1-ci müavini Mehriban xanım Əliyevaya olan inam və rəğbətin, ümumxalq məhəbbətinin göstəricisidir.

**İkinci mühüm uğur iqtisadiyyatda əldə edilmiş yüksək nəticələrlə bağlıdır.** Son 17 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artmışdır. Bu gün Cənubi Qafqazın iqtisadiyyatının 75 faizi ölkəmizin payına düşür. Artıq regionda Azərbaycanın iştirakı olmadan hər hansı beynəlxalq və regional layihə reallaşa bilməz. Bu gün Azərbaycan iqtisadi baxımdan regionda ən müstəqil bir ölkədir. Azərbaycanın iqtisadi, maliyyə resursları ölkəmizin müstəqilliyini təmin edəcək qədər güclü və yetərlidir.

**Üçüncü sevindirici uğur Azərbaycanın beynəlxalq nüfuzu ilə bağlı əldə edilmiş nəticədir.** Ölkəmiz müstəqillik əldə etdiyi illərdə hər birimizin arzusu Azərbaycanın beynəlxalq aləmdə daha çox tanınması, xarici ölkələrdə milli, mənəvi dəyərlərimizin geniş təbliğinə nail olunması idi. Məşhur şeirdə nisgillə qeyd edildiyinin əksinə, artıq millətlərin imzaları içində bizim millətin də imzası möhkəm qərarlaşıb.

Bu gün Azərbaycan xarici aləmdə kifayət qədər sivil, zəngin milli dəyərləri olan, dünyaya açıq, sülhsevər, qurubyaradan, güclü və müstəqil bir ölkə kimi qəbul olunur. Azərbaycan bu gün dünyada ikinci böyük dövlətlər birliyi olan Qoşulmama Hərəkatının sədridir. Azərbaycan ötən illərdə BMT Təhlükəsizlik Şurasına rəhbərlik edən ölkələrdən biri olub. Bütövlükdə, Avropa Şurasında, ATƏT-də, Avropa İttifaqında mövqeyi olan. Sözü keçən müstəqil ölkələrdən biridir.

**Tarixi sırasına görə dördüncü, amma önəminə görə ən böyük uğur Azərbaycan dövlətinin ərazi bütövlüyünün 30 illik inadlı və yenilməz mübarizə nəticəsində, nəhayət, bərpa edilməsidir.** Artıq xalqımız vahid bir amalı uğrunda apardığımız Vətən müharibəsindən tam qalib çıxmışdır. İşğal olunmuş torpaqlarımızın Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə erməni faşizminin tapdağından azad olunması milli qürurumuzu dirçəltdi. Bu gün Azərbaycan 21-ci əsrdə dünyada yeni reallıqlar yaradan bir xalq kimi, qalib bir xalq kimi, regionda daha çox hesablaşılan bir ölkə kimi qəbul olunur.

Bütün bu tarixi nəticələr Yeni Azərbaycan Partiyasının rəhbəri kimi Azərbaycan Prezidenti cənab İlham Əliyevin və eyni zamanda, bu amallara xidmət edən hər bir azərbaycanlının davamlı, qətiyyətli mübarizəsinin nəticəsidir. Bu uğurlarla ölkəmiz artıq yeni reallıqlar dövrünə daxil olmuşdur. Bu reallıqları isə biz amallarımıza möhkəm inamımızala və öz gücümüzlə yaratdıq. Ona görə də regionda yeni dövrün də əsas söz sahibi Azərbaycandır.

Xalq və dövlət olaraq artıq bizi düşündürən əsas məsələlər isə aşağıdakılardan ibarətdir: bundan sonra bizi hansı çağırışlar gözləyir, dövlətimizin daha da güclənməsi üçün hansı istiqamətdə daha çox inkişaf etməliyik, xaricdən gələn təhlükələrə necə cavab verməliyik. Partiyanın VII qurultayında cənab Prezident bütün bu istiqamətlərdə kifayət qədər açıq və geniş bir nitq söylədi, gələcək iş istiqamətlərini göstərdi.

Qurultayda partiya lideri növbəti üç ay ərzində YAP-ın yeni proqramının hazırlanmasını və bu növbəti ümummilli hədəflərin orada öz əksini tapmasını idarə heyəti qarşısında bir tapşırıq kimi qoydu. Biz əminik ki, yeni seçilən idarə heyəti partiya resurslarının daha da artmasına, qarşıya qoyulan hədəflərə çatmaq üçün dinamizmin, funksionnalığın daha da yüksəlməsinə çalışacaq.

Yeni Azərbaycan Partiyasının rəhbərliyi dünyada baş verən ən son yeniliklər haqqında düşünür, onları təhlil edir və buradan gələn çağırışlara cavab vermək üçün partiyanın yenilənməsi və onun qarşısında duran məqsədlərə çatmaq naminə yeni resursların tapılması istiqamətində fəaliyyətlə məşğuldur.

Qurultayda cənab İlham Əliyev bir daha vurğuladı ki, biz böyük tarixi uğurlar əldə etmişik və eyni zamanda bundan sonra hansı uğurlar əldə edəcəyimizlə bağlı düşünməliyik. Təbii ki, burada bizim ən böyük rəqibimiz zamandır. Çünki zaman sürətlə axır, dövr sürətlə dəyişir. Belə bir zamanda ölkəmiz qarşısında da çox mühüm çağırışlar səslənir. Tarix göstərir ki, indiki dövrdə zamanla ayaqlaşmasaq, biz gələcəkdə bir çox məsələlərdə geridə qala bilərik. Aparıcı partiya kimi bu barədə düşünmək bizim əqidə borcumuzdur, bu, eyni zamanda, tarixi missiyadır. Cənab Prezidentin verdiyi tapşırıqların bir çoxu həm də bu missiya ilə bağlıdır.

Qurultayda Yeni Azərbaycan Partiyasında yeni Veteranlar Şurası yarandı. Yaşlı partiya üzvlərinin təcrübəsindən istifadə etmək, eyni zamanda, gənc qüvvələr vasitəsilə bu təcrübənin yeni metodlarla və dəyərlərlə yayılmasını təmin etmək olduqca vacibdir. Bu gün YAP Azərbaycanda daim müasir texnologiyalardan istifadə edə bilən, yeni gündəlik yarada bilən, yeni ideyalar və dəyərlər yayan bir partiya olmağı qarşısına hədəf qoyub.

***Tahir MİRKİŞİLİ,***
***Milli Məclisin komitə sədri***